# Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Türkiyədə simpoziumda iştirak edib

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Kadir Özkayanın dəvəti ilə həmin ölkənin Konstitusiya Məhkəməsinin 63-cü ildönümü münasibətilə "XXI əsrdə Konstitusiya ədalət mühakiməsinin gələcəyi" mövzusunda keçirilmiş simpoziumda iştirak etmək üçün İstanbul şəhərində olub.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbirin rəsmi hissəsində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Dolmabahçe Sarayında iştirakçıları salamlayıb və onlarla xatirə şəkli çəkdirib.



Simpoziumun əvvəlində Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Kadir Özkaya 34 ölkənin konstitusiya nəzarəti orqanlarının sədrlərini, hakimlərini və digər qonaqların iştirakı ilə keçirilən tədbirdə çıxış edib.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev tədbirdə çıxış edərək hüquq və ədalətin, insan hüquq və azadıqlarının müdafiəsi və konstitusiya prinsiplərinin aliliyinin təmin olunması sahəsində səylərinin davam etdirilməsinə əminliyini bildirib.

Simpoziumun praktiki hissəsində XXI əsrdə konstitusiya ədalət mühakiməsinin gələcəyi, rəqəmsal dövrdə konstitusiya ədalət mühakiməsi, konstitusiya ədalət mühakiməsində yeni çağırışlar və imkanlar, eləcə də digər hüquqi məsələlər üzrə məruzələr dinlənilib və geniş fikir mübadiləsi aparılıb.

Tədbirdə Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransı (TÜRK-AY) Təşkilatına üzv olan ölkələrin Konstitusiya məhkəmələrinin iclasında Təşkilata müvəqqəti sədrlik səlahiyyətləri rəsmi olaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə verilib.

Səfər çərçivəsində xarici ölkələrin konstitusiya nəzarəti orqanlarının sədrləri və hakimləri ilə məhkəmə-hüquq sahəsində fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2025.- 29 aprel (№85).- S.8.